# Ağla, qərənfil, ağla!

Qurdun azğın dişləri,
Alt-üst etdi işləri.
Dara çəkilmişləri
Ağla, qərənfil, ağla!

Çilikləndi eynəyim,
Yetər artıq göynəyim,
Baş daşları köynəyim,
Ağla, qərənfil, ağla!

Bu ağrı içimdədi,
Hamı bir biçimdədi,
Vətən yas içindədi,
Ağla, qərənfil, ağla!

Qan etdilər səhəri,
İçirdilər zəhəri,
Bas bağrına şəhəri,
Ağla, qərənfil, ağla!

Zirvələr sar saxladı,
Dünya da sarsaxladı.
Yaramız qaysaxladı
Ağla, qərənfil, ağla!

Tank gəlir özgə səsdə
Quş neyləsin qəfəsdə?
İzdiham dəstə-dəstə
Ağla, qərənfil, ağla!

Gəl nə sındır, nə xışla,
Məzarları naxışla,
Hamını bir baxışla
Ağla, qərənfil, ağla!

Şeytan öz qabındadı,
Hiylə niqabındadı,
Getdi bu qabın dadı
Ağla, qərənfil, ağla!

Zülmətdə xan gecəni,
Gözləri qan gecəni,
Bu qudurğan gecəni,
Ağla, qərənfil, ağla!

Cücərt məni, ək məni
Oyatmaz tütək məni.
Diri-diri tək məni,
Ağla, qərənfil, ağla!

Ənvər Paşa bilincə,
Danış incə, din incə.
Qarabəkir gəlincə
Ağla, qərənfil, ağla!

Ömrün biz köçündəyik,
Alovun içindəyik,
Bu yasın üçündəyik
Ağla, qərənfil, ağla!

Atı yəhərsiz deyil,
Xəncəri zərsiz deyil,
Tanrım xəbərsiz deyil
Ağla, qərənfil, ağla!

Biz verdik ixtiyarı,
Qəm bürüdü diyarı.
Ağlatma Bəxtiyarı
Ağla, qərənfil, ağla!

Anar silkələnibdi,
Qabil güllələnibdi,
Qana qan bələnibdi,
Ağla, qərənfil, ağla!

Gənclərlə səsləşərdin,
Torpaq üstə əsərdin,
Görüşə tələsərdin
Ağla, qərənfil, ağla!

Qoy məhv olsun yağı de,
Çəkdi bizə dağı de,
Bayatı de, ağı de,
Ağla, qərənfil, ağla!

Rəbbim saldı azarı,
Bizdən düşdü güzarı,
Yoxdu behi bazarı
Ağla, qərənfil, ağla!

Eldi gücü, dayağı
Vətəndədi ayağı
Xəlil Rza sayağı
Ağla, qərənfil, ağla!

Həmişə vicdanlını,
Qeyrətlini canlını,
Sabir Rüstəmxanlını
Ağla, qərənfil, ağla!

Zirvədə səkmək olmur,
Yenidən əkmək olmur,
Bu dərdi çəkmək olmur,
Ağla, qərənfil, ağla!

Doğranan meşəmizdi,
Dərdimiz, nəşəmizdi,
Ağlamaq peşəmizdi,
Ağla, qərənfil, ağla!

İsmayıl Şıxlı gəlib,
İsdi baxışlı gəlib,
Toylu, aşıxlı gəlib,
Ağla, qərənfil, ağla!

Qatlamaynan dizimi,
İtirməynən izimi.
Ağlatma Dilbazimi,
Ağla, qərənfil, ağla!

Kim yaralı, kim xəstə,
Şəhidlər dəstə-dəstə.
Ölənləri ahəstə,
Ağla, qərənfil, ağla!

Habil yas saxlamazdı,
Kökündən laxlamazdı.
Gülərdi, ağlamazdı,
Ağla, qərənfil, ağla!

Mən nə deyim bu bürcə,
Özün de bircə-bircə.
Yaşamadıq ömürcə,
Ağla, qərənfil, ağla!

Nərimanı teyləmə,
Sirri yada söyləmə,
Çox da kürlük eyləmə
Ağla, qərənfil, ağla!

Səp yaramın duzunu,
Ərit qəlbin buzunu,
Qurd apardı quzunu,
Ağla, qərənfil, ağla!

Kaş dərs olsun bu bizə,
Göz yummayaq gündüzə,
Qan artıq çıxıb dizə
Ağla, qərənfil, ağla!

Nə qədər gördük kötək,
Nə əl qaldı, nə ətək,
Dərdimiz pətək-pətək,
Ağla, qərənfil, ağla!

Su dəhnədən soğulur,
Kimsə susur boğulur,
Günəş hər gün doğulur,
Ağla, qərənfil, ağla!

Dərdimiz təməllidi,
Bu ki bizə bəllidi.
Ağlamaq təsəllidi,
Ağla, qərənfil, ağla!

Güllələr səpələndi,
Qan köynəyə bələndi.
Varlığım silkələndi,
Ağla, qərənfil, ağla!

Yandım-söndüm külüm yox,
Zəmidə sünbülüm yox,
Bu zülüm tək zülüm yox,
Ağla, qərənfil, ağla!

Acı külək hey əsir,
Can almağa tələsir,
Ruhumuz qaldı əsir,
Ağla, qərənfil, ağla!

Hər birisi əriydi,
Dillərdə əzbəriydi
Xalqın öncülləriydi
Ağla, qərənfil, ağla!

Alim avazla gəlib,
Zəlimxan sazla gəlib,
Məmməd Arazla gəlib
Ağla, qərənfil, ağla!

Gül üstə arı sızlar
Ölənin yarı sızlar
Möhlətin tarı sızlar
Ağla, qərənfil, ağla!

Dərdimiz çiçəklədi,
Hey bizi kötəklədi,
Ölüm bizi təklədi
Ağla, qərənfil, ağla!

Söylə nə var havayı,
Ucuz sanma bu vayı
Hikkələnib boz ayı
Ağla, qərənfil, ağla!

Bu bizlərə şərdimi?
Ya da bir zəhərdimi?
Bir evdən üç mərdimi
Ağla, qərənfil, ağla!

Bu yarımçıq şamları,
Qaralmış axşamları,
Gül qoxan əndəmları-
Ağla, qərənfil, ağla!

Kişi doğulmuşları,
Əbədi susmuşları.
Şəhid qaranquşları,
Ağla, qərənfil, ağla!

Bu düşməni tanı sən,
Əldən vermə anı sən,
Can verməyən canı sən,
Ağla, qərənfil, ağla!

Tər çiçəklər tər getdi.
Ev dağıldı dər getdi,
Gəlin qaldı ər getdi
Ağla, qərənfil, ağla!

Milləti seçənləri,
Qanımı içənləri,
Zülümlə köçənləri,
Ağla, qərənfil, ağla!

Əylən dizdən öncə,
Tapdanan izdən öncə,
Düşməni bizdən öncə,
Ağla, qərənfil, ağla!

Bu qədər talanları,
Şər adlı yalanları,
Dərdi lap kalanları,
Ağla, qərənfil, ağla!

Dözənmirik zillətə,
Hıçqırığa, illətə,
Sən də qoşul millətə -
Ağla, qərənfil, ağla!

Tükəndi getdi dözüm,
Söndü ocağım, közüm,
Bir şəhid də mən özüm
Ağla, qərənfil, ağla!

***23 yanvar 1990***



**Eldar HƏSƏNLİ**
*Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü*

Bakı xəbər 2021.- 23-25 yanvar.- S.15.